1_Layout 1 09.03.2023 10:12 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 5 (644)

Xüsusi buraxılış

11 mart 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!



## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ QOŞUNLARIN GÜNÜ ELAN OLUNMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası Daxili Qoşunlarının Vətənin müdafiəsində xidmətlərini və öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmələrini qiymətləndirərək **qərara alıram:**

Erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - 12 mart Azərbaycan Respublikasının Daxili Qoşunlarının Günü elan edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 1995-ci il.



## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA

"Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm.

Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur".

***(29.04.1994-cü ildə Prezident Aparatında keçirilən müşavirədəki çıxışından)***

"Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda Daxili Qoşunlar yarandı. Bu, ölkəmiz üçün çox çətin bir dövr idi. Müstəqilliyimizin ilk illəri Azərbaycanda anarxiya və xaosla müşayiət olunurdu. Demək olar ki, ölkə parçalanma ərəfəsində idi və Azərbaycanda yaşanan böhran, ümumiyyətlə, ölkəmizi uçurum kənarına gətirmişdi. Bu çətin şəraitdə, əlbəttə ki, Daxili Qoşunlar öz funksiyalarını tam mənada icra edə bilməzdilər. Amma eyni zamanda, Daxili Qoşunlarda xidmət edən şəxsi heyət Azərbaycanın ərazi bütövlüyü uğrunda cəsarətlə vuruşmuşdu,

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA

şəhidlər vermişdi və torpaqlarımızın qorunması uğrunda böyük işlər görmüşdür".

"Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir".

"Son illər ərzində Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir".

"Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmlənməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

# DÖVLƏTÇİLİYİN KEŞİYİNDƏ ƏZMKAR XİDMƏT NÜMUNƏSİ

Artıq 31 ildir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bu gün Daxili Qoşunlar, sözün əsl mənasında, xalqımızın əmin-amanlığı, dövlət və dövlətçiliyin daha da gücləndirilməsi naminə fədakar xidmətini davam etdirməkdədir.

Ötən illərdə Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər zaman böyük məsuliyyətlə yanaşıb və ona göstərilən bu yüksək etimadı doğrultmağa çalışıb. Yarandığı gündən daim dövlətin və dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Daxili Qoşunlar Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində formalaşıb, inkişaf edib, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.

Daxili Qoşunlar yarandığı gündən ölkə daxilində ictimai təhlükəsizliyin təmin olunması ilə yanaşı, Vətənin müdafiəsində də






iştirak edib. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz iz qoyub.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci il martın 9-da imzalanmış Fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan olunub. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüş əməliyyatlarına ilk dəfə olaraq 1992-ci il mart ayının 12-də başlayıb.

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti yeni mərhələyə qədəm qoyub, onun təyinatından irəli gələn vəzifələrin icrasında zəngin təcrübə qazanılıb, geniş quruculuq işləri aparılıb, maddi-texniki baza yenilənib, beynəlxalq hərbi əməkdaşlıq əlaqələri qurulub, Daxili Qoşunlar döyüş hazırlığına, hərtərəfli təchizatına, müasir silah-sursatına, texnikasına görə Avropanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlib.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini veriblər. Ön cəbhənin müxtəlif istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirib.

Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının daim nəzarətindədir. İstər cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə edib. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlib.

Daxili Qoşunlarda bu gün ciddi nizam-intizam hökm sürür, şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir. Şəxsi heyət Prezidentə, dövlətə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti və döyüş ruhu kifayət qədər yüksəkdir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edib. Hərbi qulluqçularımız işğalına son qoyulan torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanaraq, həmin bölgələrdə polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərərək, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlirlər. Bu da Daxili Qoşunların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

**mayor Anar Əhmədov**

2_Layout 1 09.03.2023 10:09 Page 1



# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ: AĞDAMDAN BAŞLAYAN DÖYÜŞ YOLUMUZ

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Birinci Qarabağ müharibəsində döyüşlərə başladığı ərəfədə Qarabağ bölgəsi və Ermənistanla həmsərhəd rayonlar erməni işğalçılarının hərbi təcavüzünə məruz qalırdı. Xocalıda dinc əhaliyə qarşı soyqırım törədilmişdi. Ölkədaxili ictimai-siyasi vəziyyət də gərginləşmişdi.***



1992-ci il martın 12-də Daxili Qoşunların Baş İdarəsinin, Bakı və Sumqayıt şəhərlərində yerləşən hərbi hissələrinin şəxsi heyətindən ibarət birləşmiş hərbi dəstə Ağdam rayonu ərazisinə gətirilib. Bu hərbi dəstə ilk olaraq Şelli kəndinə gəlmiş, sonra Qalayçılar və Papravənd kəndlərinin müdafiəsinə göndərilərək, bu istiqamətdə döyüş mövqelərini öz nəzarətinə götürüb. Həmin gün qoşunların şəxsi heyətinin dayandığı mövqelər düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulub. Hərbi qulluqçularımız bu ilk döyüş sınağından alnıaçıq çıxaraq, qətiyyət və cəsarət göstərərək, düşməni cavab atəşi ilə susdurublar.

Daxili Qoşunların şəxsi heyəti ön cəbhəyə gəldiyi ilk anlardan yüksək nizam-intizam, ruh yüksəkliyi və qorxmazlıq nümunələri göstərib. Zabit, gizir, çavuş və əsgərlərimiz öz fədakarlıqları ilə yerli sakinlərin inamını qazanıblar.

Döyüş bölgəsində yerləşdirilən Daxili Qoşunların birləşmiş hərbi dəstəsi sonradan burada yeni hərbi hissələrin təşkilinə zəmin yaradıb.

1992-1994-cü illərdə Daxili Qoşunların hərbi hissələri Ağdam (Xocalı rayonuna aid ayrı-ayrı yaşayış məntəqələri də daxil olmaqla), Tərtər (Ağdərə istiqaməti), Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində respublikamızın müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda döyüş yolu keçiblər.

Daxili Qoşunların şəxsi heyəti Birinci Qarabağ müharibəsində qiymətli döyüş təcrübəsinə yiyələnib. O vaxt hərbi qulluqçularımızın böyük əksəriyyəti ilk dəfə olaraq müharibədə iştirak edib. Buna baxmayaraq, hərbi qulluqçularımız döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı yüksək iradə və qətiyyətləri, şücaətləri ilə fərqləniblər.

1992-ci ilin mart-dekabr, habelə 1993-cü ilin yanvar-oktyabr aylarında Daxili Qoşunların ön cəbhədəki şəxsi heyətinin iştirakı ilə müxtəlif istiqamətlərdə düşmənin xeyli canlı qüvvəsi, texnika, artilleriya qurğuları, istehkam vasitələrinin məhv edilməsi ilə nəticələnən uğurlu hücum və müdafiə xarakterli döyüşlər olub. Döyüş salnaməmizin bu ziddiyyətli və keşməkeşli mərhələsi işğal altında olan ərazilərin bir hissəsinin azad edilməsi və torpaqlarımızın bir qisminin yenidən işğala məruz qalması acı gerçəkliyi ilə də yadda qalıb.

Həmin dövrün sarsıntılı müharibə itkiləri milli birlik və möhkəm dövlətçilik kimi taleyüklü faktorların təmin olunmasındakı boşluqların ölkənin ərazi bütövlüyünün qorunmasına necə ciddi zərbə vurduğunu göstərdi.

1993-cü il noyabrın 2-də Ümummilli Lider cənab Heydər Əliyevin radio və televiziya ilə xalqa tarixi müraciəti bütünlüklə Silahlı Qüvvələrin yenidən qurulması, Ermənistanın hərbi təcavüzünün dəf edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpası yolunda gərəkli bir proqrama çevrildi. Ulu Öndərin tarixi çağırışı Daxili Qoşunlarda böyük canlanma və ruh yüksəkliyi yaratdı. Daxili Qoşunların şəxsi heyətinin məhz bu zaman, 1993-cü ilin noyabr-dekabr aylarında Füzuli rayonunda düşmənin hücumlarının qarşısını alması, 1994-cü ilin yanvar ayında isə ordu hissələri ilə birgə həmin istiqamətdə başlanan əks-hücumu ağır döyüşlərdən sonra Horadiz sərhədyanı qəsəbəsinin (hazırda Horadiz şəhəri) və ətrafdakı onlarla kəndin, habelə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin işğaldan azad olunması ilə nəticələnib. Azərbaycanın xeyrinə əsaslı dönüş kimi qiymətləndirilən bu döyüşlərdə Daxili Qoşun hissələrinin fəaliyyəti əvəzsiz olub.

**Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 681 nəfər həlak olub, 5 nəfər itkin düşüb və 1179 nəfər isə yaralanıb.**

# MİLLİ QƏHRƏMANLARIMIZ



İstefada olan polis polkovniki Məmmədov Sahil Ələmdar oğlu



Kapitan Arazov Ənvər Talış oğlu



Baş leytenant Yəhyayev Elşad Məmmədhənifə oğlu



Baş leytenant Quliyev Mətləb Kamran oğlu



Baş leytenant Nəcəfov Fəxrəddin Vəlyəddin oğlu



Baş leytenant Abdullayev Rövşən Abdulhüseyn oğlu



Çavuş Makeyev İqor Vladimiroviç



Əsgər Məhərrəmov Səxavət Ələmdar oğlu



Əsgər Muradov Ruslan Həmid oğlu

"Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş fədakar oğullar arasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 9 nəfər hərbi qulluqçusu da var. Onlardan 8 nəfəri bu fəxri adla ölümündən sonra təltif edilib. Kapitan Ənvər Arazov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Rövşən Abdullayev, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov Birinci Qarabağ müharibəsi zamanı ərazi bütövlüyümüzün bərpası uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar. Müharibə sınaqlarından keçərək ağır yaralanmış və əlil olmuş Sahil Məmmədov isə bu gün istefada olan polis polkovnikidir.

Bu qəhrəman hərbi qulluqçularımız ön cəbhənin müxtəlif istiqamətlərində şərəfli döyüş yolu keçiblər.

Qəhrəmanlarımızın hər biri haqqında qürurla demək olar ki, müharibənin od-alovu içində, dəhşətli gerçəklikləri ilə üz-üzə qaldıqda Vətən sevgiləri, hərbi anda sədaqətləri onların mənəvi güc mənbəyi olub. Onlar döyüş meydanında şücaət nümunələri göstəriblər.

Milli qəhrəmanlarımızın şərəfli döyüş yolu Vətən naminə fədakarlıq örnəyi olmaqla, onların davamçıları üçün hünər məktəbinə və ruhlandırıcı amilə çevrilib.

Onların şanlı döyüş yolu hərbi qulluqçularımız tərəfindən ləyaqətlə davam etdirilərək, uzun illərdən sonra 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağı altında olan torpaqlarımız azad olunub, doğma Qarabağımızda müqəddəs üçrəngli bayrağımız yenidən ucaldılıb.

# DAXİLİ QOŞUNLAR VƏTƏN MÜHARİBƏSİNDƏ

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixləri Azərbaycan Respublikasının dövlətçilik və hərb tarixində şərəfli və qürurverici səhifə olaraq layiqli yer tutacaqdır. Qeyd olunan 44 gün ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimizin erməni təcavüzkarlarına qarşı uğurlu əks-hücum əməliyyatı nəticəsində uzun illər düşmən tapdağında qalan Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz adlanan, eləcə də 5 adsız yüksəklik işğaldan azad edilib.





Döyüş meydanında və diplomatik müstəvidə məğlub olan Ermənistan müharibəni dayandırmaq üçün Azərbaycanın şərtlərini qəbul etmək, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qalıb. Belə ki, Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən noyabrın 10-da birgə bəyanat imzalanıb. Bəyanata uyğun olaraq, 2020-ci il noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verilib. Beləliklə, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə ölkəmizə qaytarılması prosesi yekunlaşıb.

Vətən müharibəsində rəşadətli Silahlı Qüvvələrimizin ayrı-ayrı qoşun növlərinin şəxsi heyəti yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək, dəmir yumruqla erməni işğalçılarının başını əzib. Belə ki, şanlı ordumuz həm havada, həm də yerdə hərbi güc üstünlüyünə malik olmaqla, düşməni canlı qüvvə sarıdan xeyli tələfata uğradıb, onun havadan müdafiə sistemlərini, aviasiya vasitələrini, artilleriyasını, zirehli texnikalarını, şəxsi heyət, silah-sursat daşıyan avtomobillərini sıradan çıxarıb, təchizat anbarlarını, komanda-idarəetmə məntəqələrini, rabitə qovşaqlarını dağıdıb. Yeni hərbi texnologiya növünə aid olan dronlar vasitəsilə ordumuz erməni hissə və bölmələrinin silah arsenalına və texnika parkına dəqiq zərbələrlə bərpa olunmayan zərər vurub. Yeni texnologiyalardan istifadə edilməklə erməni işğalçı qüvvələrinin komandanlığına daxil olan yüksək rütbəli və vəzifəli şəxslərin hərəkət marşrutu nəzarətdə saxlanılıb, onlar dəqiq atəşlə zərərsizləşdiriliblər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları istər Birinci Qarabağ müharibəsi, istərsə də 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində ön cəbhənin müxtəlif istiqamətlərində erməni işğalçılarına qarşı mətinliklə döyüşərək, gənc nəslə örnək olacaq qəhrəmanlıq nümunələri göstəriblər.

Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu - polkovnik Yusibov Zəfər Qəzənfər oğlu, polkovnik İmrəliyev Füzuli Şiraslan oğlu, mayor Qaflanov Şixamir Oruc oğlu (ölümündən sonra) və mayor Bədəlov Nicad Mehman oğluna "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Bundan əlavə, dövlət başçısının 15, 18, 24, 25 və 29 dekabr 2020-ci il tarixli, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə Daxili Qoşunların şəxsi heyətindən 6 nəfər "Zəfər" ordeni (1 nəfər ölümündən sonra), 11 nəfər "Qarabağ" ordeni (3 nəfər ölümündən sonra), 8 nəfər "Azərbaycan Bayrağı" ordeni (2 nəfər ölümündən sonra), 14 nəfər 3-cü dərəcəli "Rəşadət" ordeni (3 nəfər ölümündən sonra), 79 nəfər "Vətən uğrunda" medalı (66 nəfər ölümündən sonra), 30 nəfər "İgidliyə görə" medalı (2 nəfər ölümündən sonra), 92 nəfər "Cəsur döyüşçü" medalı (1 nəfər ölümündən sonra), 77 nəfər "Döyüşdə fərqlənməyə görə" medalı, 31 nəfər "Hərbi xidmətlərə görə" medalı (1 nəfər ölümündən sonra), 251 nəfər "Cəbrayılın azad olunmasına görə" medalı (32 nəfər ölümündən sonra), 95 nəfər "Xocavəndin azad olunmasına görə" medalı (6 nəfər ölümündən sonra), 643 nəfər "Füzulinin azad olunmasına görə" medalı (20 nəfər ölümündən sonra), 343 nəfər "Şuşanın azad olunmasına görə" medalı (28 nəfər ölümündən sonra), 187 nəfər "Kəlbəcərin azad olunmasına görə" medalı (25 nəfər ölümündən sonra) və 5 nəfər "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 3 noyabr, 24 və 28 dekabr 2020-ci il tarixli müvafiq əmrləri ilə qoşunların şəxsi heyətindən 134 nəfər "Şücaətə görə", 126 nəfər isə 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", həmçinin Nazirlər Kabinetinin 21 aprel və 5 noyabr 2022-ci il tarixli sərəncamlarına əsasən, 1662 nəfər "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

2020-ci il noyabrın 10-da ölkə başçısı düşmən üzərində qazanılan tarixi Qələbə münasibətilə xalqa müraciətində deyib: "Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb".

Qədirbilən xalqımız ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında, məcburi köçkün soydaşlarımızın didərginlik həyatının sona çatmasında, bizim tərəfimizdə olan haqq-ədalətin bərqərar edilməsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tarixi xidmətini, sərkərdə qətiyyətini heç vaxt unutmayacaq. Qalib Silahlı Qüvvələrimizin bu müharibədə keçdiyi zəfər yolu müasir hərb salnaməmizin qəhrəmanlıq nümunəsi kimi bugünkü və gələcək nəsillər tərəfindən daim yüksək qiymətləndiriləcəkdir.

# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARIMIZ



Mayor
Qaflanov Şixamir
Oruc oğlu



polkovnik
Yusibov Zəfər
Qəzənfər oğlu



polkovnik
İmrəliyev Füzuli
Şiraslan oğlu



mayor
Bədəlov Nicad
Mehman oğlu

3_Layout 1 09.03.2023 10:04 Page 1









GÜC, MƏHARƏT, ÇEVİKLİK VƏ NİZAMIN VƏHDƏTİ...

# DÖYÜŞ TƏLİMİ PROSESİ DAVAMLI OLARAQ TƏKMİLLƏŞDİRİLİR

Xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə şəxsi heyətin mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün döyüş təlimi prosesinin keyfiyyətli təşkili, onun məzmun və üsullarının davamlı olaraq təkmilləşdirilməsi, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, fəaliyyət taktikası üzrə məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasına əsaslı zəmin yaradır. Hər bir hərbi hissə və bölmənin, hərbi qulluqçunun gücü onun döyüş qabiliyyətinə bağlıdır. Bu baxımdan Daxili Qoşunlarda döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur.

Hazırda Daxili Qoşunların sərəncamında müasir standartlara cavab verən təlim mərkəzləri və şəhərcikləri, idman zalları, atıcılıq tirləri, tədris vasitələri və ləvazimatları mövcuddur. Hərbi hissələrdə məşğələ otaqları müasir tərtibata malikdir və lazımi texniki avadanlıqlarla təchiz edilib.

Daxili Qoşunlarda döyüş təliminin öz xüsusiyyətləri var. Bu prosesdə Daxili Qoşunların vəzifələrindən irəli gələn praktiki fəaliyyətlərə əsas diqqət yönəldilir. Daxili Qoşunların taktikasının çoxşaxəli elementləri təlimlərdə müvafiq nizamnamə, direktiv və digər normativ sənədlərin tələbləri əsasında məşq etdirilərək, ötən illərdə qazanılan təcrübə də nəzərə alınır.

Qeyd etmək lazımdır ki, Daxili Qoşunların tərkibindəki müxtəlif bölmələrin yerinə yetirdikləri tapşırıqların xarakterinə uyğun olaraq, təlimlərdə onların döyüş hazırlığının yüksəldilməsi, qarşılıqlı dəstək və birgə fəaliyyət üsullarının təkmilləşdirilməsi xüsusi diqqət yetirilən məqamlardır.

Bütövlükdə, döyüş təlimlərində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, silahlardan sərrast atəş açmaq bacarığının inkişaf etdirilməsinə, zirehli texnika, avtomobilləri idarəetmə məharətinin artırılmasına, çeviklik, dözümlülük, ahəngdarlıq, nizamlılıq vərdişlərinin aşılanmasına nail olunur.

Daxili Qoşunların şəxsi heyəti digər qoşun növlərinin şəxsi heyəti ilə birgə döyüş təlimlərində də peşəkarlıq cəhətdən fərqlənir.







# DAXİLİ QOŞUNLAR ÖZ VƏZİFƏLƏRİNİ UĞURLA YERİNƏ YETİRİR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ötən 31 ildə öz statusu ilə müəyyən edilmiş vəzifələri uğurla yerinə yetirib. Şəxsi heyət paytaxt Bakıda və bölgələrimizdə keçirilən xüsusi əməliyyatlarda iştirak edib. Hərbi qulluqçularımız Daxili işlər naziri və Daxili qoşunların komandanı tərəfindən qarşıya qoyulmuş müxtəlif tapşırıqların yerinə yetirilməsi zamanı dövlətçiliyə sədaqət, qətiyyət və sayıqlıq nümunələri göstəriblər.

Beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi, yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınması, ayrı-ayrı ərazilərdə silahlı cinayətkarların axtarılaraq zərərsizləşdirilməsi, cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşlar nəticəsində pozulmuş daxili rejim qaydalarının bərpa olunması, irihəcmli qəzaların, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması zamanı ictimai asayişin mühafizəsi, vətəndaşların xilas edilməsi, dövlət və əhaliyə məxsus əmlakın qəza və təbii fəlakət zonalarından təxliyyəsi məhz şəxsi heyətin peşəkarlığının, yüksək mənəvi-psixoloji hazırlığının göstəricisidir.






Bir çox xüsusi əməliyyatda Daxili Qoşunların hərbi qulluqçuları polis əməkdaşları ilə birlikdə və ya koordinasiya olunmuş şəkildə iştirak ediblər. Şəxsi heyətin silah, texnika, xüsusi vasitələrdən qanunvericiliyin tələblərinə uyğun və effektiv şəkildə istifadə etməsi təmin olunub.

Daxili Qoşunlar ictimai təhlükəsizliyin təmin olunmasında zəngin xidmət təcrübəsi toplayıb. Bu amil xüsusi əməliyyatların planlaşdırılması, xüsusiyyətləri və keçirilməsi taktikasında da öz əksini tapıb.





Son dövrdə şəxsi heyətin yerinə yetirdiyi mühüm tapşırıqlardan biri də koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi olub. Bununla əlaqədar polis əməkdaşlarına göstərilən praktiki köməklik karantin rejiminin səmərəli təşkilində vacib rol oynayıb.

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərində baş vermiş Vətən müharibəsi ilə əlaqədar ölkəmizin ərazisində elan edilmiş hərbi vəziyyət rejiminin təmin olunması üzrə tapşırıqların yerinə yetirilməsində Daxili Qoşunların da fəaliyyəti xüsusi vurğulanmalıdır.

Hərbi vəziyyət dövründə paytaxt və bölgələrdə komendant saatının tətbiqi ilə bağlı qurulmuş polis postlarında Daxili Qoşunların hərbi qulluqçuları da xidmət aparıblar.

Xidmətə cəlb olunan şəxsi heyət qarşıya qoyulan tapşırıqların məsuliyyətini düzgün dərk etməklə, hərbi vəziyyət rejimi tədbirlərinə aid təlimatları dəqiq yerinə yetirib, vətəndaşlara münasibətdə etik davranış qaydalarına ciddi riayət edib, belə çətin vəziyyətdə nümunəvi xidmətilə qoşunlar haqqında müsbət rəy yaradıb.

Bu gün hərbi qulluqçularımız polis əməkdaşları ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə ictimai təhlükəsizliyin qorunması, mühüm obyektlərin mühafizəsi, terror, təxribat, digər qanunazidd fəaliyyətlərin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları yerinə yetirirlər. Onlar stasionar postlar və piyada marşrutlarda komendant xidməti aparırlar.

Məlum olduğu kimi, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə təbii sərvətlərimizin talanmasına, qanunsuz istismarına, eləcə də Qarabağ iqtisadi rayonunda ekoloji terrora etiraz olaraq ekofəallar və qeyri-hökumət təşkilatlarının təmsilçiləri Laçın-Xankəndi yolunun bir hissəsində dinc aksiya keçirirlər. Aksiya iştirakçılarının təhlükəsizliyi Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən təmin olunur. Təhlükəsizliyin təmin olunması üzrə təşkil edilən xidmət aksiya iştirakçıları tərəfindən minnətdarlıqla qarşılanır.

Daxili Qoşunların şəxsi heyətinin xalqımızın əmin-amanlığı keşiyində mübariz xidməti dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir və ölkə ictimaiyyətinin dərin rəğbətini qazanır.










4_Layout 1 09.03.2023 10:20 Page 1



# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİ



***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyatında ötən 31 ilin mühüm hadisələrindən biri də Daxili Qoşunların Ali Hərbi Məktəbinin yaradılmasıdır. Ali Hərbi Məktəbin formalaşmasınadək ötən dövrdə Daxili Qoşunların tərkibində tədris təyinatlı və fərqli strukturlu hərbi hissələr fəaliyyət göstərib.***

***1997-ci il oktyabrın 31-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol"un tələblərinə uyğun olaraq, Daxili Qoşunlarda müasir tələblərə cavab verən tədris prosesinin təşkilinə start verilib.***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2006-cı il tarixli qərarına əsasən, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinin əsası qoyulub.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 9 iyul 2012-ci il tarixli Fərmanı ilə Ali Hərbi Məktəbin Nizamnaməsi təsdiq edilib.

Daxili Qoşunların Ali Hərbi Məktəbi ali xüsusi-hərbi təhsilli kadrların hazırlanmasını, zabit və gizirlərin, müddətdən artıq xidmət edən hərbi qulluqçuların ixtisaslarının artırılmasını və elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir.

Ali Hərbi Məktəbdə tədris Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun təşkil edilir. Təhsil müddəti dörd ildir. Mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı bakalavriat səviyyəsində aparılır.

Məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə bakalavr dərəcəsi, qanunvericiliklə nəzərdə tutulmuş diplom, döş nişanı, 3-cü məharət dərəcəsi və Daxili işlər nazirinin əmri ilə "leytenant" hərbi rütbəsi verilir.

Ali Hərbi Məktəbin fəaliyyətinin müasir standartlara uyğun təşkili məqsədilə bütün lazımi şərait mövcuddur. Belə ki, burada qərargah, kursantların təlimi və yaşayışı üçün yeni korpuslar, xidmət və məişət təyinatlı bir sıra obyektlər, eləcə də yeməkxana istifadəyə verilib.

Müasir texnologiyalar və yeni tədris vəsaitlərinin tətbiqi, yaradılan müvafiq maddi-texniki baza zabit kadrlarının hazırlanmasına olan tələblərin müvəffəqiyyətlə həyata keçirilməsinə yönəldilən addımlardır.



Daxili Qoşunların Ali Hərbi Məktəbinin formalaşması və davamlı inkişafı üçün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində, Daxili işlər naziri və Daxili qoşunların komandanının rəhbərliyi altında görülən bu möhtəşəm işlər Daxili Qoşunlarda peşəkar kadrların hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin respublikanın hərbi təhsil müəssisələri sırasında qısa müddətdə nüfuz qazanması və ildən-ilə Ali Hərbi Məktəbə qəbul olunmaq istəyən vətənpərvər əqidəli gənclərimizin sayının artması da uğurlu fəaliyyəti xarakterizə edən müsbət göstəricidir.

## VETERANLARIN FƏALİYYƏTİ XÜSUSİ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında uzun illər ləyaqətlə xidmət etmiş, Daxili Qoşunların yaradılması və inkişafında təqdirəlayiq əməyi olan hərbi qulluqçuların bir hissəsi bu gün ehtiyatdadır. Onların böyük bir qismi müharibə və Silahlı Qüvvələr veteranı adlarını daşıyır. Veteranlar bizim fəxrimizdir, onların Daxili Qoşunların bugünkü səviyyəyə yüksəlməsində xidmətlərini danmaq və unutmaq olmaz.***





Ümummilli Lider Heydər Əliyev öz çıxışlarında veteranları cəmiyyətimizin dəyərli üzvləri kimi xarakterizə edib, gənc nəslin vətənpərvərlik tərbiyəsində onların fəaliyyətini xüsusi vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də veteranlara həmişə diqqət və qayğı göstərib, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müvafiq fərman və sərəncamlar imzalayıb, veteranların fəaliyyətinə dəstəklə bağlı dövlət orqanlarına müvafiq tapşırıqlar verib.

Daxili Qoşunların veteranları döyüş sınaqlarından keçən, hərbi xidmətdə peşəkarlıq zirvəsinə ucalan, zəngin həyat təcrübəsinə malik şəxslərdir. Onlar müasir tariximizin mühüm hadisələrinin şahidi olub, ölkəmiz üçün çətin günlərdə əqidəsinə, hərbi anda sadiq qalıb, əzmkarlıq göstəriblər.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən veteranların fəaliyyəti, qayğıları və müraciətləri xüsusi diqqət mərkəzində saxlanılır.

Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq Daxili Qoşunların Veteranlar şurası fəaliyyət göstərir. Təşkilatın tərkibində Daxili Qoşunların müharibə və Silahlı Qüvvələr veteranları təmsil olunurlar. Şura veteranlarımızın hüquq və mənafelərini müdafiə edir, onların təşkilatlanması yönündə tədbirlər həyata keçirir. Veteranlar şurası veteranlarla Daxili Qoşunlar arasında mənəvi bağlantı yaradan, həmçinin veteranların özlərinin qarşılıqlı əlaqələrini qoruyub saxlayan bir qurumdur.

## HƏRBİ QULLUQÇULARIMIZ İDMAN NAİLİYYƏTLƏRİ İLƏ FƏRQLƏNİRLƏR

***Şəxsi heyətin idmanla məşğul olması, fiziki hazırlığını artırması üçün yüksək səviyyədə şərait yaradılıb***

Daxili Qoşunların döyüş təlimi prosesində şəxsi heyətin idman və fiziki hazırlığına xüsusi diqqət yetirilir. Hərbi qulluqçuların sağlam həyat tərzinin qorunub saxlanılması, bədən tərbiyəsinin inkişafı və fiziki hazırlığının yüksəldilməsini xidməti fəaliyyət baxımından mühüm amillər kimi xarakterizə etmək olar. Mükəmməl fiziki hazırlıq yüksək döyüş hazırlığının vacib şərtlərindən biridir. Məhz buna görə də Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə şəxsi heyətin idmanla məşğul olması, fiziki hazırlığını artırması üçün yüksək səviyyədə şərait yaradılıb. Belə ki, Daxili Qoşunların Baş İdarəsində idman zalı, hərbi hissələrdə isə idman şəhərcikləri mövcuddur. Bundan əlavə, Daxili Qoşunlarda peşəkar idmançıların xidmət etdiyi İdman komandası fəaliyyət göstərir.





Ötən 31 ildə Daxili Qoşunların sanballı idman potensialının formalaşması yönündə uğurlu yol qət edilib.

Daxili Qoşunların hərbi qulluqçularının daxil olduqları yığma komandalar ötən illər müxtəlif idman növləri üzrə yarışlarda fərqlənərək, mükafatlar qazanılmasında əzmkarlıq nümayiş etdiriblər. Belə nailiyyətlər Daxili Qoşunların idman potensialını zənginləşdirib.



Bu gün Daxili Qoşunların sıralarında beynəlxalq yarışların qalibi, idman ustası, idman ustalığına namizəd, I, II, III idman dərəcələrinin daşıyıcısı, habelə I, II dərəcəli hərbi idman kompleksi nişançısı olan hərbi qulluqçular xidmət edirlər.

Ötən dövrdə idman arenalarında, mötəbər yarışlarda Daxili Qoşunların zabit, gizir, çavuş və əsgərləri yenilməzlik nümunəsi göstəriblər. Onlar özünəməxsus hərbçi nizamı, iradə və qətiyyətləri sayəsində, məşqlərdə gərgin əmək sərf edərək, vətən sevgisi ilə milli idmanımıza yeni mükafatlar qazandırıblar.

İnanırıq ki, idmançı hərbi qulluqçularımız şərəfli ənənələri bundan sonra da uğurla davam etdirəcəklər.

## XİDMƏTİ FƏALİYYƏTDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VACİB ROL OYNAYIR

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanlığı ictimaiyyətlə əlaqələrin qurulmasına çox ciddi diqqət yetirir. Elə bu səbəbdəndir ki, bütün hərbi hissələrdə mütəmadi olaraq "Açıq qapı günü" təşkil edilir, əsgər valideynləri ilə görüşlər keçirilir.***



Daxili Qoşunların komandanlığı gənclərə və yeniyetmələrə hərbi-vətənpərvərlik əqidəsi aşılayan layihələri daim dəstəkləyir. Ötən dövrdə Daxili Qoşunlar tərəfindən şagird və tələbələr üçün hərbi təmayüllü yay istirahət düşərgələrinin yaradılması dəyərli nümunə olmaqla, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

Vətənə sevgi, dövlət və dövlətçiliyimizə sədaqət mövzusunu özündə əks etdirən videoçarxların, sənədli filmlərin çəkilməsi, televiziya və radio verilişlərinin hazırlanmasında Daxili Qoşunların təşkilati dəstəyi təqdirəlayiqdir.

Daxili Qoşunların şəxsi heyəti Azərbaycan kinematoqraflarının müəllifi olduqları, vətənpərvərlik və hərb tarixi mövzusunda bir sıra bədii filmlərin çəkilişində iştirak edib.

Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə müntəzəm olaraq ədəbiyyat, elm xadimləri, politoloqlar, müxtəlif sahələrin ekspert və mütəxəssisləri ilə görüşlər keçirilib, incəsənət ustalarının iştirakı ilə konsertlər, tamaşalar nümayiş etdirilib.

Bundan başqa, Daxili Qoşunlarla bir sıra dövlət və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əməkdaşlıq əlaqələri qurulub.

Ombudsman Aparatının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri mütəmadi olaraq şəxsi heyətin xidməti fəaliyyəti ilə tanış olur, hərbi qulluqçuların maarifləndirilməsi yönündə söhbətlər aparırlar. Adıçəkilən qurumların əməkdaşları hərbi hissələrimizdə şəxsi heyətin yüksək nizam-intizamı, hərbi qulluqçular arasında sağlam zəmində formalaşmış qarşılıqlı münasibətləri yüksək qiymətləndirirlər.








*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonu: (012) 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**